BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2008

# TARİX

## İRAN, SURİYA VƏ İRAQIN PKK TERRORUNA MÜNASİBƏTİNƏ DAİR (XX ƏSRİN 80-90-CI İLLƏRİ)

S.T.HACIYEV
*Bakı Dövlət Universiteti*

Son 20 ildə qardaş Türkiyəyə ən çox zərər vuran bəla PKK terrorudur. 30 min nəfərdən çox Türkiyə vətəndaşı PKK terrorunun qurbanı olmuş, ölkəyə milyardlarla dollar həcmində ziyan dəymişdir.

Necə olmuşdur ki, əsası 1978-ci ildə Abdulla Öcalan tərəfindən qurulmuş PKK (Partiya Karderane Kurdustan - Kürdüstan İşçi partiyası) bu qədər uzun müddətdə Türkiyəyə qarşı mübarizə apara bilmişdir və aparır.

PKK-nı meydana gətirən, onu qidalandıran və gücləndirən Türkiyə ilə müəyyən haqq-hesabları olan kənar qüvvələr, yəni xarici dövlətlərdir. Bu çox geniş mövzu olduğundan biz bu məqaləmizdə yalnız üç dövlətin - İran, Suriya və İraqın PKK terroruna münasibətindən bəhs edəcəyik.

Sovetlər və Qərb imperializmi tərəfindən yaradılan "Kürd problemi", Fələstin problemindən sonra Yaxın və Orta Şərqdə siyasi sabitsizlik və bölgədəki tarazlığı alt-üst edən ikinci problem kimi meydana çıxmışdır. Türkiyənin yaxın qonşuları, PKK vasitəsilə də Türkiyəni təhdid etmişlər.

Türkiyə keçmişdə olduğu kimi, indi də ətrafda beynəlxalq qüvvələr tarazlığına təsir göstərə biləcək bir ölkədir. O, coğrafi mövqelərinə və imkanlarına görə bir çox dövlətlərin diqqətini cəlb edir. Türkiyənin bölücü ünsürlərin hədəfi olduğu bölgəsi Suriya, İraq, İranla həmsərhəddir. Qonşu ölkələrin yardımı olmadan terrorçular Türkiyəyə girib çıxa bilməzlər. Qonşu ölkələrdə yerləşən yüzdən artıq təlim düşərgələri və partizan ocaqlarında yetişdirilən terrorçular bu ölkələrin yardımı ilə Türkiyəyə gedib-gəlirlər.

1925-ci ildə türk Qacar sülaləsini devirib hakimiyyətə keçən Rza şah Pəhləvi İran əhalisinin 40 faizini təşkil edən Azərbaycan türklərinin Türkiyəyə meyl edəcəyindən, Türkiyədəki inqilabi demokratik dəyişikliklərin İrana sirayət edəcəyindən ehtiyatlanırdı, buna görə də Türkiyəni zəiflətmək üçün ingilislərin dəstəyi ilə bir kürd siyasəti yeridirdi. Rza şah əvvəlcə kürdlərin də ari irqə mənsub olduğunu təbliğ edirdi. 1925-ci ildə Ramazan və Reçkonun, yenə həmin ildə Şeyx Saitin, 1926-cı ildə Koçuşağının, 1926-1936-cı illərdə Ağrı, 1928-ci ildə Sasun, 1930-cu ildə Zeylən dərəsi və Şəmdinli üsyanlarını Rusiya və İngiltərə ilə birlikdə dəstəkləyərək üsyan başçılarına İranda sığınacaq vermişdi (6, s.79).

1963-cü ildə İraqda yeni dövlət çevrilişindən sonra kürdlərin lider-

lərindən biri olan Cəlal Talabani İrana sığınır (6, s.79). İran təhlükəsizlik xidməti SAVAK-la İraqdakı kürd bölüşdürücüləri arasında iş birliyi yaranır. 1964-cü ildə SAVAK-ın araçılığı ilə Talabani və Barzani barışdırılmışdır. 1980-ci ildən başlayan İran-İraq müharibəsində İKDP İrana kömək edirdi. Barzaninin KDP-si ilə Talabaninin KDP-si İran ordusu ilə birlikdə İraq hökumətinə qarşı mübarizə aparırdılar (6, s.31).

İran İslam inqilabından sonrakı ilk illərdə İran din xadimlərinin Atatürk əleyhinə verdikləri bəyanatlar, islamçı hərəkatını ətraf ölkələrə yayma cəhdləri, İraqdakı kürd qruplaşmalarının dəstəklənməsi və bu qruplaşmaların da PKK-nı dəstəkləməsi nəticəsində İran-Türkiyə münasibətləri olduqca kəskinləşmişdi. İran inqilabından sonra FAT və Suriya ilə münasibətlərin genişlənməsi, İran-İraq müharibəsi PKK-nın bu ölkədəki mövqeyinə də yaxından təsir göstərdi. İran, Barzaninin dəstəklədiyi İraq KDP-ni himayə etdiyi üçün PKK Barzaninin düşərgələrindən istifadə etmək imkanı qazandı. İran İKDP-nin PKK ilə əməkdaşlığına isti yanaşdı (8, s.226-228). Ancaq Barzani ilə PKK arasında dərin ziddiyyətlər olduğu üçün bir müddət sonra Türkiyənin yardımı ilə güclənən Barzani PKK-nı Şimali İraqdan sıxışdırmağa başladı.

İran dini əsaslarla qurulmuş dövlət rejimini qonşu müsəlman ölkələrə də yaymağa çalışdığından bu ölkələrdəki bölücü təşkilatları, müxtəlif fikirləri himayə edir. Türkiyəyə birbaşa hərbi müdaxilə etmək iqtidarında olmayan İran Türkiyəni zəiflətmək üçün buradakı bölücü hərəkatlara və təşkilatlara rəğbət bəsləyir.

İranla PKK arasında rəsmi əlaqə 1984-cü ilin avqust ayında meydana çıxmışdı. Bu zaman PKK silahlı təbliğatdan dövlətə qarşı partizan çıxışlarına keçdi. Beləcə İran İraqla davam edən müharibədə Türkiyənin Mosul və Kərkükə yönəlik hərəkətlərinin qarşısını almaq imkanı əldə etdi. 1985-ci ildə PKK Türkiyəyə girişdə çətinliyə düşdüyü vaxt İran ona öz ərazisindən istifadə etməyə icazə verdi. Üstəlik Türkiyənin təzyiqi ilə PKK ilə əməkdaşlıqdan imtina edən Barzaninin əvəzinə İran meylli Cəlal Talabani PKK-ya dəstək verməyə başladı. İran eyni zamanda PKK-nı öz nəzarəti altında saxlamağa, ona qarşı hərəkətlərə yol verməməyə çalışırdı. İran rəsmiləri ilə PKK rəhbərliyi arasında aşağıdakı məzmunda anlaşma imzalanmışdır: “1. TC-nin durumu haqqında bilgi vermək; 2. Şərqi Kürdüstan (İran Kürdüstanı - S.H.) kütləsi içərisində mütəşəkkil siyasi fəaliyyət göstərməmək; 3. İran KDP-yə düşmən münasibət bəsləmək; 4. Sərhəd boyunca əlli kilometrlik məsafədə terror hərəkətləri gerçəkləşdirməmək; 5. Türkiyədəki ABŞ-a məxsus binalara qarşı terror hərəkətləri keçirmək” (8, s.232).

İran-PKK əlaqələri 1987-ci ildən etibarən intensivləşmiş, 1993-cü ildə bir durğunluq keçirmiş, 1995-ci ildən yenidən artmağa başlamışdır. PKK İranda bir çox düşərgə və sığınacaq, Urmiyada bir xəstəxana təşkil etmişdir. Təşkilat İran ərazisindən Ermənistana və Azərbaycan Respublikasına keçid üçün də istifadə edirdi (1, s.69).

Göründüyü kimi, İran PKK-nın hər cür fəaliyyətinə dəstək verirdi. PKK-nın İranın xeyrinə götürdüyü öhdəlikləri əvəzinə İran PKK-ya onun ərazisindən arxa cəbhə kimi yararlanmağa imkan verirdi. Sərhəd (Qars-Ağrı) əyaləti üzrə planlaşmada bu xüsusilə aydın görünür. Əyalət üzrə PKK məsulunun etirafına görə İran “əyalətin arxa cəhbəsi” idi, silahlı yaraqlılar 1991-ci ilə qədər yazda Türkiyəyə girir, qışda isə İrana dönürdülər (8, s.233).

İran Türkiyə hökumətinin Şimali İraqda, PKK düşərgələrinə qarşı hərbi əməliyyatlarına mənfi reaksiya verirdi. 1986-cı ildə Türkiyədə 12 əsgərin ölümü ilə nəticələnən basqından sonra İran məclisinin sədri Rəfsancani Türkiyəni Kərkük-Mosul bölgəsini işğal etmək planları olduğuna görə ittiham etmişdi. İran silahlı qüvvələri 1987-ci ilin martında Şimali İraqda hərəkətə keçərək İmran şəhərinə qədər irəliləmişdi. Türkiyə onun üçün həyati əhəmiyyətə malik Kərkük-Mosul neft kəmərini təhlükə altına qoyduğu üçün İrana öz etirazını bildirmişdi.

İran bölgədəki mövqelərini qorumaq və KDP-yə təsirini itirməmək üçün anti-Türkiyə siyasətini davam etdirir, Ermənistan-Azərbaycan münaqişəsində ermənipərəst siyasət yeridir, Türkiyəni bölgədə NATO və Qərbin təsirinin yayılmasında alət olmaqda təqsirləndirir. İran hökuməti Türkiyədə fəaliyyət göstərən PKK, HİZBULLAH və ASALA yaraqlılarının İrana sığınmalarına və burada təşkilatlanmalarına şərait yaradır.

Öcalan İmralı həbsxanasında İranın PKK-ya dəstəyi mövzusunda ifşaedici açıqlamalar vermişdir:

“Urmiyada bir xəstəxanamız mövcuddur. Kelereş taqım səviyyəsində kiçik bir düşərgədir. İranda düşərgə qurmağa bir elə ehtiyac yoxdur, zira Şimali İraqda geniş sahələr var. Şəhidan, Maku, Zaqros, Cerme kimi düşərgələr İran-İraq sərhədində olub sərhədə yaxın İran torpaqlarında qalan düşərgələrdir. İrandakı fəaliyyətlərimiz haqqında mənim bildiklərim bunlardır. Bununla yanaşı, Suriyada olarkən məni İTTİLAAT adlanan İran gizli servisinin Seyid adlı əməkdaşı zaman-zaman ziyarət edirdi. Seyid bizimlə sərhəd məsələləri haqqında danışır, Hizbullah təşkilatı ilə bizim təşkilatımız arasındakı çatışmalarda araçılıq etmək istəyirdi, daha doğrusu biz Seyidin Hizbullahla çatışmalarımızda vasitəçi olmasını istəyirdik. Bir də Şimali İraqda İKDP üzərində təsiri olduğundan nüfuzundan istifadə edib bu təşkilatın bizə basqı etməsinin qarşısını almasını istəyirdik. Seyidlə Qafqaz vasitəsilə Rusiyadan silah göndərilməsi məsələsini müzakirə etdik. Bu silahlar zaman-zaman İranda saxlanılırdı, bu məsələ ilə bağlı təmsilçilərimiz Seyidlə müzakirələr aparırdılar. İranda xəstəxanamız olduğunu və orada bizim 100 nəfərlik heyətimizin olduğunu İran tərəfi bilir. İran hökuməti bu şəkildə gərək bizə taviz verərək, gərəksə lazımi qüvvə istifadə edərək, gərək bizi, gərək də İrandakı kürdləri təsiri altında saxlamaqdadır” (9, s.57-58).

Öcalan İmralı həbsxanasında ifadə verərkən PKK-nın İranda xəstəxanası olduğunu təsdiq etmiş, təlim düşərgəsi olduğunu isə inkar etmişdir. Amma əsl həqiqətdə təşkilatın İranda düşərgəsi vardı. Türk istihbaratı İranda PKK-nın 11 düşərgəsinin olduğunu öyrənmiş, hətta bu barədə İran rəsmilərinə məlumat verilmişdir. Təsbitlərə görə, İranın Bədkar, Dərbənd və Kelereş məntəqələrində hərbi və siyasi təlim təyinatlı 11 PKK düşərgəsi vardı və bu düşərgələrdə 288 PKK-çı təlim alırdı (9, s.56-57). PKK-çıların bu məntəqələrdə yerləşmələri hətta ətrafda yaşayan insanları belə rahatsız etmişdi. Təşkilat yaraqlılarının həftədə iki gün şəhərə çıxmasına icazə verilirdi, bu zaman isə onlar xoşagəlməz hərəkətlər edir, qadın və qızlara sataşırdılar. Ətraf əhalini rahatsız etdiklərinə görə bir müddət sonra düşərgələrdəki 50 yaraqlı Bekaa vadisindəki düşərgəyə göndərilmişlər (9, s.57).

PKK hərəkatının doğulmasında, yarandığı bölgədə təsirinin artmasında Suriya xüsusi bir rola malikdir.

Suriya, PKK-ya birbaşa yardım göstərərək, ondan Türkiyə ilə problemlərinin həllində istifadə edir. Suriya, Hatay da daxil olmaqla Türkiyənin Şərqi Toros dağlarına qədər uzanan torpaqlarına iddia edir və onları "Böyük Suriyanın Mitosu" (Əl-Kutr əl-adamı əs-Suriya) bir hissəsi adlandırır. Suriya Fərat çayı sularının beynəlmiləl su olduğunu iddia edərək, Türkiyənin bu su mənbəyi üzərində nəzarət hüquqlarına qarşı çıxır.

Suriya Türkiyə ilə münasibətlərndə "Böyük Suriya" xülyası ilə Türkiyə torpaqlarına iddia etməklə yanaşı, bir müddət sonra sərhəd aşan sular mövzusunu da əlavə etmişdir. "Soyuq müharibə" illərində əks qütblərdə yer alan Suriya və Türkiyənin münasibətlərində silahlı münaqişəyə keçə biləcək gərginliklər də yaşandı. Bu gərginliyə Suriyanın SSRİ tərəfindən sürətlə silahlandırılması səbəb oldu (8, s.240).

Fərat sularını Türkiyə, Suriya və İraq arasında bölüşdürən sazişlər mövcuddur. 1987-ci ildə imzalanmış iqtisadi əməkdaşlıq protokoluna görə Türkiyə ildə orta hesabla $500m^3$/san-dən artıq suyu sərhəddən kənara buraxmağı öhdəsinə götürmüşdür. Suriya da 1989-cu ildə İraqla bağladığı anlaşmaya görə Türkiyədən gələn suyun 42 faizindən istifadə edib 58 faizini İraqa buraxmağı öhdəsinə götürmüşdür (6, s.250). Razılaşma olduğuna baxmayaraq Suriya yenə də Türkiyənin Fərat çayı üzərində nəzarətini qəbul etmək istəmir.

Suriya-Türkiyə münasibətlərini kəskinləşdirən amillərdən biri də Suriyanın SSRİ-nin Yaxın və Orta Şərqdəki ən yaxın sadiq dostu olması olmuşdur. Sovet siyasətində bir alət olan Suriya SSRİ-nin dəstəyi ilə Türkiyəyə qarşı siyasət yeridirdi. SSRİ dağılandan sonra Suriya digər antitürk dövlətlə – Yunanıstanla yaxınlaşmışdır.

FAT-ın Livana yerləşməsindən sonra Suriyanın bu təşkilata nəzarəti ələ keçirmə cəhdləri FAT içərisindəki bir sıra marksist təşkilatlarla əlaqələr yaratmasına səbəb oldu. Bu təşkilatlar sayəsində Suriya, dolayısı ilə də olsa dünyanın hər yanından gələn "yaraqlılara təlim və nəzarəti"i əldə edib, bir yandan da SSRİ ilə birlikdə Orta Şərqə girməyə çalışan Çinin qarşısını kəsdi. 70-ci illərin sonunda Suriya artıq SSRİ-nin Orta Şərqdə ən etibarlı müttəfiqi oldu. Əvvəllər PKK, Suriya torpaqlarını da əhatə etməli olan "Böyük Kürdüstan" ideyasını müdafiə etdiyinə görə Suriya bu təşkilata soyuq yanaşırdı. Lakin zamanla PKK-nın baxışlarında müəyyən dəyişiklik müşahidə olunurdu. Belə ki, Öcalan, artıq Suriya mütərəqqi ölkə olduğu üçün burada yaşayan kürdlərin vəziyyətinin pis olmadığını deyirdi (8, s.243).

Əvvəlcə PKK ilə Suriya arasında əlaqələr başlıca olaraq qaçaqmalçılıq yolu ilə Suriyadan silah gətirilməsində ifadə olunurdu. Suriyadan silah qaçaqmalçılığına Ədhəm (Said Akcan) rəhbərlik edirdi. Suriya gizli xidmət servisinin üzvü olan Ədhəm Türkiyə sərhədində yaşayan qohumlarının da yardımı ilə silahların Türkiyəyə keçirilməsini təşkil edirdi (8, s.243).

1979-cu ilin avqustunda Suriyaya keçdikdən sonra Suriyanın PKK-ya yardımı çox artmışdı. O, öz yaraqlılarının bir hissəsini isə Əl-Fəth düşərgəsində yerləşdirmişdi (8, s.244).

PKK-çılar Dəməşqdə, Haseki və Hələb vilayətlərinin sərhəd məntəqələrində çoxlu ev və sahələr kirayələyərək Suriya təhlükəsizlik xidmət orqanlarının yardımı ilə təlim və məşq keçirdilər. Həm Dəməşqdə, həm də kürd soyköklü Suriya vətəndaşlarının yaşadığı digər yaşayış məntə-

qələrində "Özəl Fəaliyyət Cəbhəsi" təşkil edilərək təbliğat və təşkilatlanma fəaliyəti həyata keçirilirdi. Suriya hökumətinin xüsusi icazəsi ilə sərhədboyu ərazini tanımaq, sərhəd kəndlərində yaşayan sakinləri təşkilata cəlb etmək, onlardan casus, kuryer və üzv kimi istifadə etmək, Suriya kürdlərinin maddi yardımından istifadə etmək yönündə fəaliyyət göstərilirdi (1, s.67).

1982-ci ildə İsrail Livanı işğal edərkən Suriya ilə İsrail arasında bağlanmış anlaşmaya görə FAT Livandan çəkilməli idi. FAT ilə birlikdə PKK da Livandan çəkilməli oldu. Bu zaman PKK yaraqlılarının bir qismi müvəqqəti olaraq Suriyada yerləşdirildi (8, s.246).

1982-ci ilin sentyabr, noyabr aylarında isə PKK düşərgələri Şimali İraqın Türkiyə sərhədinə yerləşdirildi. Təşkilatın qərargahı isə Suriyada qaldı. Suriyadakı Helve düşərgəsi əvvəlkitək PKK-çıların sərəncamında idi. Onlar onu "Mahsun Qorxmaz Akademiyası" adlandırırdılar (8, s.26-247). Öcalan Suriyadakı düşərgələrdə 1994-cü ilə qədər 15 min partizan yetişdirildiyini bildirmişdir (8, s.248).

Bundan əvvəl ASALA-ya strateji dəstək verən Suriya, Türkiyə hökumətinin gətirdiyi dəlillərdən sonra bu təşkilatı Livandakı Beka vadisi və İrana transfer etmiş, bundan sonra isə PKK-nı dəstəkləməyə başlamışdır. Xüsusən də 1989-cu ildə Suriya prezidenti Hafiz Əsədin qardaşı Cəmil Əsədin bölgədə bir kürd dövlətinin qurulmasının zəruri olduğu və Cənub-Şərqi Anadolunun da bu dövlətə daxil edilməsinin zəruriliyi haqqında verdiyi bəyanatdan sonra PKK-ya Suriya yardımı artmağa başlamışdır.

Suriya öz ərazisində PKK hərbi düşərgələrinin, silah anbarlarının yaradılmasına imkan vermişdir. PKK-nın sədri Abdulla Öcalanın baş qərargahı da Suriyanın Hələb şəhərində yerləşirdi. Kürd terrorçuları Suriyadakı Fələstin Azadlıq təşkilatı hərbi düşərgələrində ermənilərlə birlikdə hərbi təlim məşqləri keçir və əsasən Suriya sərhədlərini keçərək Türkiyəyə soxulurdular (2, s. 11).

İraqdakı kürd əhalisi müxtəlif mənbələrə görə üç milyonla – doqquz milyon nəfər arasındadır. Kürdlər Türkiyə və İran sərhədləri boyunca yaşayırlar. 1958-ci ildə kral devrildikdən sonra İraqa dönən Barzani buradakı kürdləri siyasi cəhətdən birləşdirməyə çalışarkən, eyni zamanda qonşu ölkələrdəki kürdçülük hərəkatlarını da təşkilatlandırmağa başladı. Ancaq bir qədər sonra Barzani ilə yeni İraq iqtidarı arasında ixtilaf yarandığından İraq kürdləri arasında bölünmə baş verdi. Kürdlərin digər qisminə rəhbərlik edən Cəlal Talabani İraq hökuməti ilə əməkdaşlıq xətti yeridirdi. Talabani həm də marksistlərə meyl edirdi. "Soyuq müharibə" dövrünün şərtlərinə uyğun olaraq Barzani ABŞ və İran tərəfindən, solçu kimi çalışan Talabani isə SSRİ tərəfindən dəstəklənirdi (8, s.253).

1974-cü ildə İraq KDP leqal fəaliyyət icazəsi almışdır. Lakin tezliklə KDP ilə İraq hökuməti arasında Kürdüstan müxtariyyətinin sərhədləri ilə bağlı ixtilaflar meydana çıxdı. Kürdlər Kərkük, Xanekin və Sincar bölgələrinin də tezliklə muxtariyyətin tərkibinə daxil edilməsini israr edirdilər. 1975-ci ildə İraq kürdlərinin üsyanı darmadağın edildi (10, s.15-16).

İraq-İran müharibəsi ərəfəsində İraq hökuməti kürdlərə münasibətini yenidən dəyişdi. Yenidən Kürdüstan muxtariyyətini tanımaq haqqında söz-söhbət getməyə başladı. 1980-ci ildə Kürdüstan parlamentinə 50 deputat seçildi. Ancaq Kərkük üstündə mübahisələr soyumadı. 1984-cü

ildə İraq ordusu kürdlərə qarşı əməliyyatları bərpa etdi (10, s.16).

Barzani Türkiyə sərhədi boyunca məskünlaşmış kürd tayfaları üzərində təsirə malik ikən Talabani daha cənubda yerləşən tayfalar içərisində nüfuza malik idi. Barzaniyə qalib gəlib, onun tərəfdarlarını ölkədən çıxarmağa məcbur etdikdən sonra İraq hökuməti Talabaninin və Kommunist partiyası tərəfdarlarının üzərinə hücuma keçdi. Buna görə Talabani İraqla münasibətləri korlanmağa başlayan Suriya və Livana yerləşdi. Suriyada olduğu dövrdə marksist kürdçü qruplarla bir araya gəlib Suriya KDP tərəfindən də dəstəklənən Talabani Türkiyə KİP-çiləriylə əməkdaşlıq edərək təkrar Şimali İraqda qüvvə, silah və yaraqlı toplamağa girişdi (10, s. 253-254).

Əslində Talabaninin Suriya tərəfindən dəstəklənməsinin arxasında gərginləşən Suriya-İraq münasibətləri və ABŞ-ın kürd məsələsi üzərində nəzarətini itirməsi dururdu.

Talabani Suriyadan və Avropadan silah-sursatı Türkiyə ərazisi vasitəsilə Şimali İraqa keçirməyə çalışırdı. Lakin Türkiyədə yaşayan Barzani yönlü kürdlər buna qəti müqavimət göstərirdilər. Buna görə də Talabani Türkiyədə feodal-patriarxal kimi tanınan Barzaniyə qarşı onunla ortaq görüşlərə malik bir şəxs aramağa başladı. Belə şəxs "sosialist" Öcalan oldu.

1988-ci ildə İran-İraq müharibəsi başa çatdıqdan sonra İraq müharibə illərində xəyanət edib ona qarşı vuruşan kürdlərin üzərinə geniş hücuma keçdi. İraq ordusu hissələri şimala – Türkiyə sərhədlərinə qədər irəlilədilər. Səddam Hüseyn kimyəvi silahdan da istifadə etdi. Kürdlər böyük vahiməyə düşdülər və İrana, Türkiyəyə qaçdılar. Eyni zamanda İraq iqtidarı müharibə zamanı ona xəyanət etmiş Barzani və Talabaninin yerinə PKK-nın bölgədə yerləşməsinə imkan verdi. PKK Şimali İraqdan arxa cəbhə kimi istifadə etməkdə davam etdi (10, s.262-263).

Əvvəllər Şimali İraq PKK-çıların Türkiyəyə soxulması üçün bir sıçrama taxtası rolunu oynayırdı. Sonralar getdikcə təşkilatın hakimiyyətləşmə sahəsi kimi rol oynamağa başlamışdır. PKK-çılar Şimali İraqa 1982-ci ildən yerləşməyə başlamışlar. Şimali İraqa və İran sərhədinə yerləşmək üçün qruplar halında göndərilən PKK-çılar BKDP (Barzani) düşərgələrində və qismən də İKDP-nin düşərgələrində yerləşmişlər. İraqda və İranda yerləşən PKK-çıların iaşəsi ilk mərhələdə İKDP tərəfindən həyata keçirilirdi. Bölgəyə yerləşən PKK yaraqlıları aldıqları təlimatlar üzrə kəşfiyyat işləri aparır, daha sonra Türkiyə sərhədini keçərək Hakkari və Şırnaqın sərhəd kəndlərində əlaqələr yaratmağa çalışırdılar (1, s.68).

PKK-çılar Şimali İraqda yerləşərkən daha çox Türkiyəyə keçmək üçün əlverişli olan bölgələrə yönəlirdilər. Burada onlar Türkiyədən gələn qaçaqmalçılarla əlaqə yaradır, bəzi yerlərdə İKDP-nin nəzarətini yoxa çıxarırdılar. Bu səbəblə müəyyən vaxtlarda PKK ilə İKDP arasında ixtilaflar meydana çıxmışdır. PKK Şimali İraqa yerləşdikcə müstəqil fəaliyyətə başlamış, İKDP-nin razılığı olmayan yerlərdə də düşərgələr təşkil etmişdir. Bununla da qısa zamanda Türkiyə-İraq sərhədi boyunca hərəkət sərbəstliyi, qidalanma və məşq imkanları əldə edilmişdir.

Şimali İraqda yerləşən PKK 1988-1991-ci ilərdə meydana çıxan köçlər sayəsində mühüm fürsətlər qazanmışdır. 1991-ci ildə 36-cı paralelin şimalının təhlükəsiz bölgə elan olunmasından sonra BKDP və KYB kimi yerli qüvvələrə üstün gəlmək üçün cəhdlər göstərilmişdir. 8-27 yanvar

1995-ci il tarixlərində gerçəкləşdirilmiş PKK V конqresində Şimali İraqın PKK üçün fəaliyyət sahəsi olduğu elan edilmişdir (1, s.69).

## QEYDLƏR


1. Ankara DGM Cümhuriyyət Başsavçılığının Abdullah Ocalan hakkında hazırladığı iddianame// APO, PKK ve saklanan gerçekler (Yama hazırlayan Ünal İnanc-Can Polat) Ankara: Güvenlik ve yarğı mühabirleri dernegi. 1999, s. 37-222 [i a].
2. «Forum» jurnalı, 1993-cü il, cild VII, sayı 13 (290).
3. «Hürriyyet» qez., 1987-ci il, 29 haziran [61].
4. Kamal Kirişçi - Gareth M.Winrow. Kürt sorunu (kökeni ve gelişimi). Ankara: Tarih vakfi yurt yayınları. 47, ikinci baskı, 1997 [67].
5. Qacar Pulat Y. Terör ve Demokrasi. Ankara: «Bilği yayınevi», Birinci baskı, 1997 [71].
6. Sami Denker. Uluslararası terör. Türkiye ve PKK. İstanbul, Boğaziçi yayınları, №217, birinci baskı, 1997 [73].
7. «Milliyyet» qez., 1987-ci il 6 nisan [82].
8. Nihat Ali Özcan. PKK (Kürdüstan İşçi Partisi). Tarihi, ideoloji və yönetimi. ASAM Avrasiya-bir vakfi: 3. Geopolitik ve terör dizisi: 2. ASAM yayınları. Ankara: 1999 [85].
9. Oktay Pirim, Süha Örtülü. PKK-nın 20 yıllık öyküsü (Ömerli köyünden İmralıya). İstanbul, Boğaziçi yayınları, 1999 [86].
10. Згерский Д. Тень на карте. «Азия и Африка сегодня», 1989, № 6 [164].


## К ВОПРОСУ ОБ ОТНОШЕНИИ ИРАНА, СИРИИ И ИРАКА К ПКК (80-90-е годы XX века)


С.Т.ГАДЖИЕВ



### РЕЗЮМЕ

Статья посвящена анализу позиций, занимаемых Ираном, Сирией и Ираком в отношении террористической деятельности ПКК (Курдская Рабочая Партия). Отмечено, что Иран после Исламской революции 1979 г., поставивший перед собой цель установления религиозно-теократического строя в соседних странах, в том числе в Турции, поддерживал курдских террористов, рассчитывая с их помощью ослабить ее. В статье приведены факты, доказывающие всестороннюю помощь Ирана этим террористам.

Сирия, претендуя на части соседних с ней турецких земель, а также оспаривая права Турции на реки Тигр и Ефрат, тоже поддерживает ПКК. Неслучайно, что долгое время штаб А.Оджалана и многие базы ПКК находились в Сирии.

ПКК длительное время пользовался и ныне продолжает пользоваться территорией Северного Ирака, как база и плацдарм для борьбы с Турцией. Лидеры Иракских курдов М.Барзани и Дж.Талабани оказывали поддержку ПКК. В свое время С.Хусейн тоже делал ставку на ПКК.

## THE DISCUSSION ABOUT THE RELATIONS OF IRAN, SYRIA AND WITH PKK

S.T.HACIYEV

**SUMMARY**

The article examines the analysis of the positions of İran, Syria and İrag with regarol to the terroristbc actiuty of the PKK (Kurdish Lebour Party)/ there is mentioned that? After the İslamic Revolution of 1979, İran, which set itself a goal to establish religious – theological formation in neighbor states, also in Turкey, supported кurdish terrorists in order to weaкen this country. The article gives numerous facts that prove the international aid of İran to these terrorists.

Syria, which claimed to the neighbor areas with turкey and contended for the rights of Turкey in the Tigris and Euphrates, also supported the PKK. it`s not casual that, for a long time the headquarters of A.Ojalan and a lot of other centers of the PKK are situated in Syria.

Both are the past and in the present time the PKK utilizes the territory of the Northern İrag as the center and base for the fought against Turкey. the leaders of İragi кurds M.Barzani and C.Talabani maintained and supported the PKK in once time S.Husein staкed on the PKK.